# Rayon müəllimlərinin ənənəvi sentyabr konfransı

***Sentyabr ayının 5-də rayon müəllimlərinin ənənəvi sentyabr konfransı keçirilmişdir. Konfransın işində Azərbaycan Respublikası Təhsil Nazirliyinin məsul əməkdaşı Əsgər Quliyev, Qəbələ 4 saylı Ərazi Maliyyə Hesablaşma Mərkəzinin rəis müavini Sadiq İbrahimov, Qəbələ Rayon İcra Hakimiyyəti başçısının müavini Ətayə Osmanova iştirak etmişlər.***



Konfransı giriş sözü ilə Təhsil Nazirliyinin nümayəndəsi Əsgər Quliyev açmışdır. Azərbaycan Respublikasının Dövlət Himni səslənmişdir.

Qəbələ Rayon İcra Hakimiyyəti başçısının müavini Ətayə Osmanova konfrans iştirakçılarını salamlamış qarşıdan gələn tədris ili münasibətilə rayonun təhsil işçilərini təbrik etmiş, onlara bu dərs ilində də uğurlar arzulamışdır.

Rayon təhsil şöbəsinin müdiri Arifə Bayramova 2018-2019-cu dərs ilinin yekunları növbəti dərs ilində qarşıda duran vəzifələr haqqında məruzə etmişdir (Məruzə qəzetimizin bu sayında ixtisarla dərc olunur).

Azərbaycan Respublikası Təhsil Nazirliyinin məsul işçisi Əsgər Quliyev konfransdakı çıxışında Prezident İlham Əliyev başda olmaqla respublika hökümətinin təhsil sahəsində həyata keçirdikləri tədbirlərdən, təhsilə, təhsil işçilərinə göstərilən diqqət və qayğıdan bəhs etmişdir. Əskər Quliyev eyni zamanda Qəbələ təhsil müəssisələrinin 2018-2019-cu dərs ilindəki fəaliyyətini təhlil etmiş, növbəti dərs ilində qarşıda duran vəzifələrdən danışmışdır.

Konfrans iştirakçıları adından Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə müraciət qəbul olunmuşdur.

Bununla da rayon müəllimlərinin sentyabr konfransı öz işini başa çatdırmışdır.

# Rayon müəllimlərinin konfransında təhsil şöbəsinin müdiri Arifə Bayramovanın hesabat məruzəsi

*(İxtisarla)*

**Hörmətli konfrans iştirakçıları!**

"Hesabat ilində rayonumuzda 68 ümumtəhsil məktəbi, 2 məktəbdənkənar tərbiyə mərkəzi fəaliyyət göstərmişdir. Məktəblərdən 3-ü ibtidai, 12-si ümumi orta, 53-ü isə tam orta məktəbdir. Məktəbəhazırlıq qruplarına 47 məktəb üzrə 66 qrupa 1203 uşaq, I - siniflərə 1703 nəfər, X siniflərə isə 1169 nəfər qəbul edilmişdir. Ümumiyyətlə rayon üzrə sinif komplektlərinin sayı 971, şagird sayı isə 16151 nəfər olmuşdur.

2018-2019-cu dərs ilində rayonun ümumtəhsil məktəblərində 2313 nəfər müəllim fəaliyyət göstərmişdir. Onlardan 408 nəfəri orta ixtisas təhsilli, 1905 - nəfəri isə ali təhsilli olmuşdur ki, bu da bütün müəllimlərin 82,36 faizini təşkil edir. Müəllimlərin əksəriyyətini, yəni, 1769- nəfərini qadınlar təşkil edir ki, bu da bütün müəllimlərin 76,5 faizi deməkdir.

Minnətdarlıq hissi ilə qeyd etmək lazımdır ki, dövlət başçısının müntəzəm qayğısı və dəstəyi nəticəsi olaraq rayonun ucqar yaşayış məntəqələrində yararsız hala düşmüş az komplektli məktəblər üçün bir tipli layihə əsasında binaların tikilməsi, eləcədə məktəblərin əsaslı təmiri bütövlükdə rayon məktəblərinin maddi-texniki bazasını möhkəmləndirmiş, onun infrastrukturunu genişləndirmiş, təlim-tərbiyə prosesinə münbit mühit yaratmışdır. Keçən dərs ilində Zərgərli kənd ibtidai, Seyidqışlaq kənd ümumi, Laza kənd ümumi, Cığatelli kənd tam orta məktəbləri üçün modul tipli məktəblər tikilib istifadəyə verilmişdir.

Hazırda Şəfili kənd ibtidai məktəb üçün 20, Qaradeyn kənd tam orta məktəbi üçün 80 yerlik modul tipli məktəbdə işlər yekunlaşmış, Vəndam qəsəbə 2 nömrəli tam orta məktəb üçün bir tipli layihə əsasında 360 yerlik məktəb tikintisində son tamamlanma işləri gedir.

Son üç ildə buraxılış imtahanlarında şagirdləri davamlı olaraq zəif nəticə göstərən məktəblərin 2017-2018- ci tədris ili üçün reytinq cədvəlləri hazırlanmışdır.

Reytinq sıralaması 65 məktəb arasında tərtib edilmişdir. Araşdırmalar, aparılan təhlillər göstərir ki, ayrı-ayrı məktəblərdə aşağı nəticələrin olması məktəblərdə olan eyni ibtidai sinif müəllimlərinin buraxdığı siniflər və eyni ixtisas müəllimləri ilə bağlıdır. Ümumi orta təhsil kursu üzrə buraxılış imtahanlarında aşağı nəticə göstərən məktəblərdə həm birinci təhsil səviyyəsinin, həm ikinci, həm də üçüncü təhsil səviyyəsinin buraxılış siniflərində tədris dili və riyaziyyat fənlərindən monitorinqlər aparılmış, nəticələr həm məktəblərin pedaqoji kollektivlərində, həm də rayon təhsil şöbəsinin təhsilyanı şura iclaslarında müzakirə edilmiş, məktəblərin ixtisas müəllimlərinə intizam tənbehi edilmiş, mümkün olduqda onların digər ixtisas müəllimləri ilə əvəz olunması nəzərdə tutulmuşdur.



Buraxılış imtahanlarının nəticələri və problemlərdən çıxış yolları axtarmaq məqsədilə Vəndam qəsəbə 1 nömrəli, Nic qəsəbə 2 nömrəli, Hacıalılı kənd, şəhər 1 nömrəli tam orta məktəblərində zona məktəblərinin müəllimləri və məktəb rəhbərlərinin iştirakı ilə müzakirələr, dəyirmi masalar keçirilmişdir.

Ötən dərs ilində təhsil şöbəsinin şura icalslarında məktəblərdə tədris dili, dövlət dili kimi Azərbaycan dili, həmçinin Azərbaycan tarixi, Azərbaycan coğrafiyası fənləri üzrə monitorinqlərin nəticələri müzakirə olunmuşdur.

2018-2019-cu dərs ilinin prioritet istiqamətlərindən biri istedadlı uşaqlarla aparılan işin keyfiyyətinin yüksəldilməsi olmuşdur. Möhtərəm Prezidentimizin sərəncamı ilə "Xüsusi istedada malik uşaqların yaradıcılıq potensiallarının inkişafı üzrə Dövlət Proqramı" təsdiq olunmuşdur. Bu proqramdan irəli gələn məsələlərdən biri xüsusi istedada malik uşaqların səmərəli təhsil almaları üçün lazımi şəraitin yaradılması həmin uşaqlarla aparılan işin keyfiyyətinin yüksəldilməsindən ibarətdir. Bu məqsədlə hər bir ümumtəhsil məktəbində və RTŞ-də "Xüsusi istedad bankı hazırlanmış, həmin banka düşən uşaqlarla onların istedadlarının daha da inkişaf etdirilməsi istiqamətində məqsədyönlü iş aparılır. Bu zaman "Hər bir uşaq istedaddır" devizindən istifadə olunur. Bu məqsədlə ayrı-ayrı fənlər, incəsənətin müxtəlif sahələri, eləcə də idman növləri üzrə ümid verən şagirdlərin yarışlara, müsabiqələrə, fənn olimpiadalarına cəlb olunması genişləndirilir, onların intellektual oyunlarda iştirakı təmin edilir. Bunun nəticəsidir ki, şagirdlərimiz respublika səviyyəli yarışlarda, müsabiqələrdə, fənn olimpiadalarında yüsək nəticə göstərirlər. Fənn olimpiadalarında uşaqların iştirakında kütləvilik ildən-ilə artır. Belə ki, 2018-2019-cu dərs ilində olimpiadalrın məktəb turunda 487, zona olimpiadasında 140, respublika mərhələsində isə 9 nəfər iştirak etmişdir. Onlardan iki nəfəri respublika turunun qalibi olmuşlar.

VII siniflər üzrə riyaziyyat, kimya və biologiya fənləri üzrə keçirilmiş fənn müsabiqələrinin nəticəsinə görə Təhsil Nazirliyi tərəfindən 17 şəhər və rayonda istedadlı uşaqlardan ibarət təmayüllü siniflər təşkil olunmuşdur. Sevindirici haldır ki, bu rayonlardan biri də Qəbələ rayonudur.

Şəhər 5 nömrəli tam orta məktəbində riyaziyyat fənni üzrə, şəhər 1 saylı tam orta məktəbində isə təbiət elmləri üzrə təmayüllü siniflər təşkil olunmuşdur. Həmin siniflərdə əsas fənlərin tədrisinə məktəblərin qabaqcıl müəllimləri cəlb edilmişdir. Qeyd olunan siniflərdə təmayüllü fənlər üzrə təhsilin keyfiyyətinə nəzarət etməyi təhsil şöbəsi öz üzərinə götürmüşdür. Siniflərdə müntəzəm olaraq riyaziyyat, fizika, biologiya fənlərdən Təhsil Nazirliyinin tərtib etdiyi testlər əsasında monitorinqlər keçirilmiş və nəticələr Təhsil Nazirliyinə göndərilmişdir.

2018-2019-cu dərs ilində məktəblilər arasında keçirilən müsabiqələrdən biri ulu öndər Heydər Əliyevin anadan olmasının 96-cı ildönümnə həsr olunmuş "Ən yaxşı təqdimat" müsabiqəsidir. Müsabiqənin rayon mərhələsində 57 şagird iştirak etmiş, şəhər 4 nömrəli tam orta məktəbin X sinif şagirdi Mirzəliyeva Səbinə respublika mərhələsinə vəsiqə qazanmışdır. O, final mərhələsində də uğurla çıxış edərək III yeri tutmuşdur.

Respublikamızda idmanın inkişafına böyük qayğı göstərilir. Rayonumuzun bütün ümumi və məktəbdənkənar təhsil müəssisələri bu istiqamətdə öz işlərini günün tələbləri səviyyəsində qurmağa çalışır. Bunun nəticəsidir ki, şagirdlərimiz zona və respublika səviyyəli yarışlarda yüksək göstəricilərə nail olurlar. "Şahin" hərbi idman oyununda şəhər 1 nömrəli tam orta məktəbin komandası rayon məktəbləri arasında I yeri tutmuş, Şəki şəhərində keçirilən zona mərhələsində iştirak edərək uğurlu nəticə qazanmışlar.

"Vətənin mühafizəsinə hazıram" çoxnövçülüyündə Əmirvan kənd tam orta məktəbin şagirdləri rayon məktəbləri arasında I yeri, İsmayıllı rayonunda keçirilən zona turunda II yeri tutaraq respublika finalında iştirak etmək hüququ qazanmışlar. Göygöl rayonunda keçirilən respublika turunda Əmirvan kənd tam orta məktəbin komandası IV (dördüncü) yeri tutmuşdur.

Vəndam qəsəbə 1 nömrəli tam orta məktəbin komandası yüngül atletika üzrə 16-17 aprel tarixində keçirilən zona yarışlarında I yeri tutaraq respublika finalında iştirak etmək hüququ qazanmışlar. Onlar respublika turunda uğurla iştirak etmiş, 4-5 -ci yerləri bölüşdümüşlər.

Şəhər 4 nömrəli tam orta məktəbin qızlardan ibarət voleybol komandası rayon birinciliyinin qalibi olmuş, Göyçay şəhərində keçirilən zona yarışlarında uğurla iştirak etmişlər.

UGİŞM-nin məşqçi müəllimi Aydan Hüseynzadənin tərtib etdiyi 2 gedişli şahmat məsələsi yanvar ayında Bolqarıstanda keçirilən Beynəlxalq kubok yarışında III yeri tutmuşdur. Şahmat üzrə idman ustası olan Aydan Hüseynzadə aprel ayında Bakı şəhərində qadınlar arasında keçirilən respublika birinciliyində II yeri tutmuşdur. Aydan Hüseynzadənin tərib etdiyi şahmat məsələsi ABŞ-da keçirilmiş beynəlxalq müsabiqədə IV yeri tutmuş, həmin məsələ amerikanının şahmat sahəsində məşhur olan "Starte Gems" jurnalında çap olunmuşdur.

UGİŞM- nin dərnək üzvü Fərhad Əliyev TN-nin xətti ilə keçirilən şahmat üzrə yarışında II yeri tutmuş və respublika birinciliyinə vəsiqə qazanmışdır.

Əmirvan kənd tam orta məktəbinin VIII sinif şagirdi İsmayılov Nail Səbuhi oğlu cüdo üzrə Tibilisi şəhərində keçirilən Beynəlxalq turnirdə öz yaş qrupunda I yeri tutmuş və "Qızıl" medal almışdır.

Qəbələ şəhər 5 nömrəli tam orta məktəbin XI sinif şagirdi Gülşən Başirova XV Avropa Gənclər Olimpiya Festivalının cüdo yarışlarında ölkəmizin aktivinə bürünc medal qazandırmışdır.

2018-2019-cu dərs ilində "Pedaqoji mühazirələr" "Müasir dövrdə ümumi təhsilin aktual problemləri" mövzusuna həsr olunmuşdur. İşçi qrupu tərəfindən 57 mühazirə dinlənilmiş, onlardan iki nəfərin mühazirəsi qalib hesab olunaraq respublika turuna göndərilməsi məsləhət bilinmişdir. Dəşca kənd tam orta məktəbin tarix müəllimi Əsədova Almaz Həkim qızı tərəfindən hazırlanmış "Tarix dərsləri vətəndaşlıq tərbiyəsi dərsləridir" mövzusu respublika mərhələsində fərqlənmiş və o, "Tərifnamə" ilə mükafatlandırılmışdır.

2018-2019-cu dərs ilində ümumi orta təhsil kursu üzrə 1255 nəfər, o cümlədən 25 nəfər fərqlənmə attestatı ilə məktəbi bitirmişlər. Tam orta təhsil kursu üzrə ümumtəhsil məktəblərini 1137 nəfər məzun bitirərək attestat almışlar. Onlardan 4 nəfəri qızıl medal, bir nəfər gümüş medal, 29 nəfəri fərqlənmə attestatı, 1103 nəfəri isə adi attestat almışdır. Məktəbi qızıl medalla bitirən məzunlarımız müxtəlif illərdə ayrı-ayrı fənlər üzrə respublika fənn olimpiadalarının qalibi olmuşlar:

**(Ardı 5-ci səhifədə).**